UOT 327; 930.22
DOI:10.30546/3006-0346.2024.5.83.010

# CON İKENBERRİYƏ GÖRƏ BEYNƏLXALQ NİZAM VƏ ONUN NÖVLƏRİ

**RAFİQ İBRAHİMOV**
*Bakı Dövlət Universitetinin, doktorantı*
*E-mail: ibrahimovrafiq123@gmail.com*

## Giriş

Beynəlxalq nizam dedikdə, dövlətlərin bir-birilə münasibətlərini formalaşdıran qayda və institutların toplusu nəzərdə tutulur [3, s. 36]. Beynəlxalq nizamın strukturu beynəlxalq sistemdə mövcud böyük güclərin sayından asılıdır [3, s. 39]. Böyük güclər sahib olduqları maddi, yəni iqtisadi, hərbi, texnoloji və digər resurs və imkanlar səbəbindən beynəlxalq sistemin digər aktorlarından daha üstündürlər və beynəlxalq münasibətlərin realizm nəzəriyyəsinə görə dövlətlərarası münasibətlərin, habelə beynəlxalq nizamın formalaşmasında həlledici rola malikdirlər.

Beynəlxalq nizam mövcud böyük güclərin sayından asılı olaraq təkqütblü, ikiqütblü və çoxqütblü ola bilər [3, s. 39-40]. Belə ki, əgər beynəlxalq sistemdə ikidən artıq böyük güc varsa, o zaman nizam çoxqütblüdür. İkinci Dünya müharibəsinin sonuna qədər beynəlxalq sistem çoxqütblü olmuşdur. Qeyd olunan dövr çərçivəsində Çar Rusiyası, Fransa, Birləşmiş Krallıq, Prussiya, Almaniya, ABŞ, Yaponiya kimi dövlətlər müxtəlif dövrlərdə böyük güclər sırasında yer almışlar. Lakin İkinci Dünya müharibəsində Almaniya və onun rəhbərlik etidiyi müttəfiqlər ordusunun ağır məğlubiyyətə uğradılması ilə bir neçə yüz il davam edən çoxqütblü nizamı 1945-1991-ci illəri əhatə edən ikiqütblü nizam əvəzləmişdir. Bu nizamın aparıcı böyük gücləri hesab edilən ABŞ və SSRİ qeyd olunan dövrdə özünəməxsus qütb formalaşdırmışlar. 1991-ci ildən 2021-ci ilə (bəzi alimlərə görə 2019-cu ilə) qədər isə ABŞ yeganə böyük güc kimi təkqütblü nizamın mərkəzində dayanmışdır. Qeyd etmək lazımdır ki, böyük güclərin sayına əsaslanaraq beynəlxalq nizamın mahiyyəti, yəni dövlətlərarası münasibətlərin hansı prinsip və səbəb-nəticə əlaqələri əsasında formalaşması barəsində hər hansı fikir söyləmək mümkün deyil. Bu say yalnız beynəlxalq sistemdə mövcud güc bölgüsünü göstərir. Beynəlxalq nizamın mahiyyətini və dövlətlərarası münasibətlərin hansı səbəb-nəticə əlaqələrinə söykəndiyini anlamaq üçün isə onun üç növü fərqləndirilir: qüvvələr balansı, ağalıq və razılıq [3, s. 47].

## 1. Qüvvələr balansı

Qüvvələr balansı beynəlxalq münasibətlər nəzəriyyəsinin iki aparıcı qolundan biri olan realizmin prinsiplərini özündə əks etdirir. Bu nizam böyük güclərin sayı iki və ya daha çox olduğu zaman formalaşır. Belə ki, nizamın əsas xüsusiyyəti ondan ibarətdir ki, böyük güclərdən hər hansısa biri həddindən artıq güclənərsə, digər böyük güclər həm bir araya gələrək, həm də öz daxilindəki resurslarını cəmləşdirərək onu balanslaşdırır [3, s. 48]. Qüvvələr balansının mahiyyətini beynəlxalq münasibətlərin realizm nəzəriyyəsini nəzərdən keçirməklə daha dərindən anlamaq mümkündür. Belə ki, realizmə görə beynəlxalq sistem anarxikdir [4, s. 30]. Başqa sözlə, dövlət-vətəndaş münasibətlərində olduğu kimi beynəlxalq münasibətlərin üzvləri olan dövlətlərin fəaliyyəti və davranışları ali hakimiyyət sahibi olan dövlətüstü müstəqil bir suveren tərəfindən məhdudlaşdırılmır. Dövlət daxilində yeganə suveren güc – mərkəzi hökumət var ki, o, zorakı gücün monopoliyası vasitəsilə yeganə ali səlahiyyət sahibidir və vətəndaşlar arasında münasibətləri tənzimləmək iqtidarındadır. Yəni dövlət bizi bizdən – fərdləri bir-birindən qoruyur, Tomas Hobbsun təsvir etdiyi hamının hamıya qarşı müharibəsinin qarşısını alır. Lakin beynəlxalq sistemdə bu funksiyanı icra edən hər hansı bir güc – "dünya hökuməti" yoxdur. Ona görə də hər bir dövlət özbaşınadır. Belə bir nizamda dövlət gücü həlledici faktor rolunu oynayır və dövlətin öz maraqlarına nail olmaq üçün əsas vasitə hesab edilir [3, s. 48-49]. Digər tərəfdən, niyyətlərin bəlli olmaması dövlətləri ehtiyatlı davranmağa sövq edir. Hətta tərəflər arasında anlaşma olsa belə, heç bir dövlət qarşı tərəfin niyyətlərindən tam əmin ola bilməz. 1939-cu ildə SSRİ və nasist Almaniyası arasında bir-birinə hücum etməyəcəklərinə dair Molotov-Ribbentrop paktı imzalanır. Lakin cəmisi iki il sonra 1941-ci ilin iyununda alman əsgərləri SSRİ-i sərhədlərini keçir və İkinci Dünya müharibəsinin miqyası genişlənir. Təbii ki, tarix belə nümunələrlə zəngindir. Çünki dövlətlərin maraqları stabil deyil, dəyişkəndir və bundan irəli gələrək niyyətlər də dəyişkən ola bilər. Niyyətlərin tam çılpaqlığı ilə

məlum olmaması da dövlətləri gücə söykənməyə və potensial dominant böyük gücə qarşı balans qurmağa məcbur qoyur [3, s. 49]. Təbii ki, beynəlxalq sistemdə gücün dövlətlər arasında bölgüsü dəyişdikcə koalisiyalar da dəyişə, yəni mövcud koalisiyalar dağıla və yeniləri yarana bilir. Məsələn, XIX əsrin əvvəlində Avropa qitəsi üzərində hegemonluq qurmağa iddialı olan güclü Fransaya qarşı Birləşmiş Krallıq, Rusiya, Prussiya və Avstriya-Macarıstan kimi böyük güclər birləşərək balans yaratmış və bununla da fransız ordusunun Avropanın şimalına və şərqinə doğru daha da irəliləməsinin qarşısını almağa cəhd göstərmişlər. Lakin XX əsrin əvvəlində iqtisadi və hərbi baxımından ayrı-ayrılıqda rəqiblərini üstələyən güclü Almaniyaya qarşı Birləşmiş Krallıq, Fransa və Rusiya bir araya gəlmişlər. Burada beynəlxalq nizamın sabitliyi məhz böyük güclərin dominantlığa iddialı olan dövlətə qarşı balans qurması ilə təmin olunur. Müxtəlif dövrlərdə böyük güclər maddi imkanlarını artıraraq dominantlığa iddialı olmuş, lakin onlara qarşı qurulmuş koalisiyalara məğlub olaraq bu dominantlığa nail ola bilməmişlər. 1815-ci ildə Napoleon Fransası, 1918-ci ildə Alman imperiyası və 1945-ci ildə nasist Almaniyası eyni taleni bölüşmüşlər. Maraqlıdır ki, qüvvələr balansının məntiqi əsası XX əsrin sonunda SSRİ-nin süqutu nəticəsində formalaşan təkqütblü beynəlxalq nizamın xarakterik xüsusiyyətlərini izah etmək iqtidarında deyil. Belə ki, qeyd olunan dövrdə və ondan sonrakı iki onillikdə gözləniləni̇n tam əksinə olaraq böyük güclər beynəlxalq sistemin yeganə hegemon gücü olan ABŞ-yə qarşı koalisiya formalaşdırmamış və onunla təhlükəsizlik sahəsində rəqabət aparmamışlar [3, s. 54]. Bu isə təkqütblü nizamda dövlətlərarası münasibətlərin hansı məntiqi əsasa söykənməsi ilə bağlı ciddi suallar yaradır.

**2. Ağalıq nizamı**

Ağalıq nizamı qüvvələr balansından fərqli olaraq beynəlxalq nizama iyerarxik perspektivdən baxdıqda onun hansı xüsusiyyətlərə sahib olduğuna nəzər yetirir. Burada beynəlxalq nizam sistemin ən güclü dövlətinin digərləri üzərində regional və ya qlobal səviyyədə dominantlığı çərçivəsində formalaşır. Belə ki, burada sistemin ən güclü dövləti ilə ikinci dərəcəli və zəif dövlətlər arasında münasibətlər tabeedən və tabeolan prinsiplərinə söykənir [3, s. 56]. Tabeedən tərəf, bir qayda olaraq beynəlxalq, sistemin iqtisadi, hərbi və texnoloji resurs baxımından ən zəngin və beləliklə, ən güclü dövlətidir. Tarix boyu müxtəlif imperiyaların meydana gəlməsi ilə sözügedən iyerarxik münasibətlər, yəni qərarların yuxarıdan aşağı ötürülməsi və icra edilməsi özünü göstərmişdir. Roma, Bizans, Monqol və Osmanlı imperiyaları buna əyani nümunədir.

Sistemin aparıcı gücü iyerarxik nizamı qurmaq və öz maraqlarını həyata keçirmək üçün müxtəlif qayda və institutlar yaradır. Sistemin ikinci dərəcəli və zəif dövlətləri isə həmin qayda və institutlara qoşularaq tabeolan tərəf kimi öz öhdəliklərinə düşən funksiyaları yerinə yetirirlər. Aparıcı güc öz maraqlarına çatmaq üçün zordan istifadə etmək imkanlarına sahibdir və lazım olduqda da zor tətbiq etməkdən çəkinmir [3, s. 57]. Bu nizam aparıcı güc öz gücünü itirənədək mövcudluğunu saxlayır. Aparıcı gücün zəifləməsi hegemonik müharibəyə – dominantlığa iddialı iki böyük güc arasında baş tutan savaşa yol açır. Bu müharibədə qalib gələn tərəf isə yenidən özünəməxsus formada iyerarxik – tabeedən və tabeolan prinsiplərinə söykənən beynəlxalq nizam bərqərar edir.

İkenberri Corc Modelskiyə istinad edərək bildirir ki, qlobal siyasi sistemə bir aparıcı gücün digərini əvəzləməsi ilə formalaşan tarixi dövrlər çərçivəsində baxmaq da mümkündür [3, s. 58-59]. Belə ki, Modelskiyə görə XVI əsrin sonuna qədər Portuqaliya, XVII əsrin sonuna qədər Niderland, XVIII əsrin əvvəllərindən Napoleon müharibələrinə qədər və 1815-1945-ci illər aralığında Birləşmiş Krallıq və 1945-ci ildən ABŞ qlobal siyasi sistemdə dominant rola sahib olmuşdur. Qüvvələr balansından fərqli olaraq bu nizama quruluş və stabillik verən məhz aparıcı gücün öz gücündən istifadə edərək digərləri üzərində nəzarət həyata keçirməsi faktıdır.

ABŞ-nin XX əsrin sonundan etibarən qurduğu nizama nəzər yetirsək, burada Avropa qitəsinin böyük gücləri ilə olan münasibətlərin heç də tabeedən və tabeolan prinsiplərinə əsaslanmadığını, lakin müəyyən qarşılıqlı şəkildə razılaşdırılmış qayda və institutlara söykəndiyini müşahidə edirik. Ona görə də ağalıq nizamı aparıcı gücün ikinci dərəcəli və nisbətən zəif dövlətlərlə niyə zor və diqtə əsasında deyil, qarşılıqlı razılaşdırılmış qayda və institutlar çərçivəsində davrandığını izah etmək iqtidarında deyildir. Burada razılıq nizamına nəzər yetirməyə ehtiyac duyulur.

### 3. Razılıq nizamı və liberal beynəlxalq nizam

Əgər qüvvələr balansı və ağalıq nizamında mövcud nizamın sabitliyi bu və ya digər formada hegemon dövlətin və ya dövlətlərin gücündən asılıdırsa, razılıq nizamında sabitlik birgə maraqlar və qanunun aliliyi vasitəsilə təmin edilir. Burada dövlətlərin davranışları razılaşdırılmış qayda və institutlar əsasında formalaşır. Ən inkişaf etmiş formasında razılıq nizamı konstitusional xarakterə sahibdir [3, s. 61]. Yəni dövlətlərin gücü müvafiq qayda və institutlar tərəfindən müəyyən bir çərçivəyə salınır və həmin qayda və institutlar gücdən istifadə etmək imkanlarını məhdudlaşdırır. Bu nizamı, əsasən, liberal demokratik rejimə sahib dövlətlər qurur və ona qoşulur. XVIII əsrin sonlarında meydana gələn həmin liberal dövlətlər XIX və XX əsrlərdə böyük güclər sırasında qərar tutaraq beynəlxalq nizamın mahiyyətinə ciddi təsir göstərmişlər. “Soyuq müharibə”nin sona çatması ilə yuxarıda adıçəkilən digər iki rəqib nizamın söykəndiyi məntiqi əsaslar da aktuallığını və əhəmiyyətini itirir. Nəticədə ABŞ-nin öz müttəfiqləri arasında “Soyuq müharibə” dövründə qurmuş olduğu regional razılıq nizamı genişlənməyə başlayır. Başqa sözlə, qaydalar və institutlar regional səviyyədən qlobal səviyyəyə yüksəlir və beynəlxalq nizam liberal xarakter alır.

İkenberri Maykl Doyla istinad edərək beynəlxalq nizamın liberallaşmasını və bu prosesdə ortaya çıxan xüsusiyyətləri üç nəzəriyyə ilə izah etməyə çalışır [3, s. 62]. Həmin nəzəriyyələr barəsində danışmamışdan əvvəl onu qeyd etmək lazımdır ki, liberal nəzəri baxışlar bir qayda olaraq dövlətlərin təhlükəsizlik və davamlı olaraq gücün əldə edilməsi ilə bağlı qayğılarını kənara qoyub bir-birilə əməkdaşlıq edə biləcəklərini zənn edir və dövlətlərarası münasibətlərin formalaşmasında daha dominant başqa stimulların mövcudluğunu vurğulayır [3, s. 63]. Bu stimullar qeyd edilən üç nəzəriyyədə öz əksini tapır:

Birincisi, ticari liberalizm, yəni dövlətlər arasında qarşılıqlı iqtisadi asılılığa səbəb olan ticari əlaqələrin güclənməsi ilə bağlı nəzəri ideyalardır. Qarşılıqlı iqtisadi asılılıq prinsiplərinə görə dövlətlər arasında ticari münasibətlər neytrallaşdırıcı xarakter daşıyır və tərəflərin bir-birilə təhükəsizlik rəqabəti aparmaq və müharibə etmək üçün səbəblərini əhəmiyyətli dərəcədə aradan qaldırır, hətta bu səbəbləri yox edir [5, s. 145-148]. İkincisi, İmmanuel Kantın “daimi sülh”ün əldə olunması ilə bağlı səsləndirdiyi arqumentlərə qədər gedib çıxan demokratik sülh nəzəriyyəsidir. Bu nəzəriyyəyə görə, liberal demokratik prinsiplər xalqların müharibə ilə bağlı dağıdıcı impulslarını neytrallaşdırır və demokratik dövlətlər arasında sülh münasibətlərinin bərqərar edilməsini təşviq edir [5, s. 104-111]. Üçüncüsü isə institusional liberalizmdir ki, bu nəzəri baxışın müəlliflərinə görə liberal demokratik dövlətlər avtoritar və totalitar rejimlərə sahib dövlətlərdən fərqli olaraq birgə razılaşdırılmış qayda və institutlar çərçivəsində fəaliyyət göstərməyi və münasibətlər qurmağı daha məqbul hesab edirlər [1, s. 29-32]. Çünki qaydalar və institutlar dövlətlərarası əməkdaşlığı və problemlərin kollektiv həllini təşviq edir, eyni zamanda beynəlxalq sistemə müəyyən gözlənilənlik gətirir. Sözügedən qayda və institutlara qoşulan dövlət öz suverenliyinin müəyyən hissəsini güzəştə gedir və əvəzində digər üzv dövlətlərin davranışlarını proqnozlaşdıra bilir. Bu isə təhlükəsizlik rəqabətinə gətirib çıxaracaq səbəbləri bu və ya digər şəkildə aradan qaldırır. Beləliklə, bu nəzəriyyələr əsasında formalaşan və inkişaf edən liberal beynəlxalq nizama qoşulan dövlətlər bu nizamdan faydalanır, nizamdan kənarda qalan dövlətlər isə qeyd olunan faydalardan məhrum olur [3, s. 65].

Liberal beynəlxalq nizam da öz formalaşma mənbəyini böyük güclər arasında baş tutan müharibələrdən sonra meydana gələn və yeni “oyun qaydalarını” özündə təsbit edən rəsmi və qeyri-rəsmi razılaşmalardan götürür. Bu baxımdan XX əsrdə üç postmüharibə dövrü əlamətdardır: Birinci Dünya müharibəsindən, İkinci Dünya Müharibəsindən və “Soyuq müharibə”dən sonrakı beynəlxalq nizam [3, s. 65-66]. Belə ki, liberal beynəlxalq nizamın qurulması istiqamətində ilkin addımlar Birinci Dünya müharibəsindən sonra ABŞ Prezidenti Vudro Vilsonun Paris sülh konfransında irəli sürdüyü təkliflərdə öz əksini tapır. Xüsusilə də Millətlər Liqasının və təhlükəsizlik cəmiyyətinin (security community – m.) yaradılmasına yönəlik cəhdlərə liberal beynəlxalq nizamın ilkin elementləri kimi baxıla bilər. Lakin bu elementlər burada müzakirə edilməyən səbəblərdən dolayı iflasa uğradı. İkinci Dünya müharibəsindən sonra meydana gələn liberal beynəlxalq nizam isə yalnız ABŞ və onun müttəfiqlərini əhatə edərək regional xarakter daşımışdır. Lakin SSRİ-nin də üzv olduğu yaxud qoşulduğu Birləşmiş Millətlər Təşkilatı, Nüvə Silahlarının Yayılmaması ilə bağlı Anlaşma və digər universal xarakterli qayda və institutlar liberal beynəlxalq nizamın qlobal miqyas-

da təzahür etməsi istiqamətində göstərilən cəhdlər kimi nəzərdən keçirilə bilər. Con Merşaymer bu arqumenti mübahisələndirərək bildirir ki, "Soyuq müharibə" dövründə qeyd olunan universal qayda və institutlar liberal deyil, realist prinsiplərin diqtəsi əsasında formalaşmışdır. Başqa sözlə, beynəlxalq sistemin ən güclü iki qütbünün lideri olan dövlətlərin maraqlarının üst-üstə düşməsi faktı həmin adıçəkilən və digər universal qayda və institutların meydana gəlməsini şərtləndirmişdir [2, s. 12-13]. Əgər maraqlar toqquşsaydı, o zaman bu universal qayda və institutlar da yaradılmazdı. Soyuq müharibə dövründə BMT Təhlükəsizlik Şurasının və ümumiyyətlə, BMT institutlarının iflic olması bu arqumentin doğruluğunu təsdiq edir. Yalnız "Soyuq müharibə" sona çatdıqdan və qütblərdən biri tamamilə süqut etdikdən sonra liberal beynəlxalq nizam "nəfəs almağa" və təsir dairəsini genişləndirərək qlobal miqyas almağa başlayır. Lakin ABŞ-nin liderliyi altında "Soyuq müharibə"dən sonra qurulan yeni beynəlxalq nizam heç də bircinsli deyil. Bu nizam həm yuxarıda müzakirə edilən ağalıq, həm də razılıq nizamının prinsiplərini özündə ehtiva edir.

### 4. İmperial nizam və liberal hegemoniya

Qeyd etdiyimiz kimi, ağalıq və razılıq nizamı qüvvələr balansından fərqli olaraq beynəlxalq sistemin iyerarxik quruluşa sahib olmasını nəzərdə tutur. Burada beynəlxalq sistemin ən güclü dövlətinin öz suverenliyini qayda və institutlarla müəyyən səviyyədə məhdudlaşdırıb-məhdudlaşdırmamasından asılı olaraq beynəlxalq nizam ya imperial, ya da liberal hegemonik xarakter daşıya bilər. İmperial nizamda dövlətlərarası münasibətlər ağalıq nizamının prinsiplərinə söykənir [3, s. 67], yəni tabeolan tabeedənin diqtəsinə boyun əyir. Burada fərqləndirici amil ondan ibarətdir ki, tabeedən tərəf tabeolan tərəflər üçün müvafiq davranış qaydaları müəyyənləşdirir, lakin tabeedən tərəfin özünün fəaliyyəti bu davranış qaydaları ilə məhdudlaşmır. Başqa sözlə, tabeedən tərəf tabeolan tərəflər üçün müəyyən etdiyi qaydaları, əgər onun maraqları tələb edərsə, poza bilər. İmperial nizam beynəlxalq və ya regional xarakter daşıya bilər.

Liberal hegemoniyada isə beynəlxalq sistemin ən güclü dövləti ilə ikinci dərəcəli və zəif dövlətlər arasında münasibətlər razılıq nizamının prinsiplərinə əsaslanır. Beynəlxalq sistemin ən güclü dövləti nizamın aparıcı fiqurudur və nizam müəyyən iyerarxik xüsusiyyətlərə sahibdir. Lakin o, ikinci dərəcəli və zəif dövlətləri öz iradəsinə zor gücü ilə tabe etmir. Beynəlxalq nizamın bu növündə sistemin ən güclü dövləti birgə razılaşdırılmış qayda və institutlar vasitəsilə "hökmranlığını" bərqərar edir [3, s. 70]. İkinci dərəcəli və zəif dövlətlər həmin qayda və institutlara könüllü qoşulur və bu qayda və institutların məqbul hesab etdiyi norma və prinsiplərə riayət edir. Liberal hegemoniyanı imperial nizamdan fərqləndirən üç əsas xüsusiyyət vardır [3, s. 71-73]: birincisi, bu nizamda sistemin ən güclü dövləti də sözügedən qayda və institutlara qoşularaq öz suverenliyini məhdudlaşdırır. Sistemin ən güclü dövlətinin bu yanaşması beynəlxalq nizamın üzvü olan digər dövlətlərin davranışlarını proqnozlaşdırmağa imkan verir və ona sabitlik gətirir. İkincisi, sistemin aparıcı gücü digər dövlətlərin əməkdaşlıq etməsi qarşılığında müəyyən ictimai xidmətlər təmin edir. Bu ictimai xidmətlərə təhlükəsizliyin təmin olunması və azad ticarət rejiminin dəstəklənməsi kimi xidmətlər aid edilə bilər. Üçüncüsü isə hegemon dövlət kommunikasiya və qarşılıqlı təsir üçün müəyyən kanal və şəbəkələr yaradır. Əlbəttə ki, bu, tam o anlama gəlmir ki, ikinci dərəcəli və zəif dövlətlər hegemon dövlətin maraqlarına və daxili siyasətinə köklü təsir göstərmək imkanına sahibdirlər. Amma bu kommunikasiya imkanlarının mövcudluğu iyerarxik sistemin zorakı elementlərini məhdudlaşdırmağa xidmət edir. Beləliklə, imperial nizamda hegemon dövlət öz gücündən istifadə edərək digər dövlətləri özünə tabe etdiyi halda, liberal hegemoniyada beynəlxalq sistemin aparıcı dövləti öz gücündən istifadə edərək ikinci dərəcəli və zəif dövlətlərin də qoşulduğu qaydalar və institutlar sistemi yaradır.

XX əsrin sonunda formalaşan nizam həm imperial, həm də liberal hegemoniyanın elementlərini özündə ehtiva edir. Belə ki, ABŞ Avropa qitəsindəki liberal demokratik rejimə sahib dövlətlərlə NATO hərbi alyansı, ATƏT, Ümumdünya Ticarət Təşkilatı və bir çox hallarda Avropa İttifaqının da daxil olduğu ikitərəfli və çoxtərəfli müqavilə və razılaşmalar əsasında münasibətlərini tənzimlədiyi halda, Cənubi Amerika qitəsinin dövlətləri və Yaxın Şərq ölkələri ilə münasibətlərini daha çox tabeedən və tabeolan prinsiplər çərçivəsində formalaşdırır [3, s. 82].

### Nəticə

Beləliklə, İkenberri beynəlxalq nizamın üç növünü fərqləndirərək qüvvələr balansı, ağalıq və ya razılıq nizamı çərçivəsində dövlətlərarası münasi-

bətlərin səbəb-nəticə əlaqələrini izah etməyə çalışır. Burada beynəlxalq nizamın quruluşu ilə bağlı əsas təyinedici faktor beynəlxalq sistemdə güc bölgüsüdür. Belə ki, böyük güclərin sayından (bir, iki və daha çox) asılı olaraq beynəlxalq nizam müvafiq olaraq təkqütblü, ikiqütblü və çoxqütblü ola bilər. Lakin bu amilə söykənərək beynəlxalq nizamın mahiyyətini anlamaq mümkün deyil. İkiqütblü və çoxqütblü dünyada qüvvələr balansı mövcud beynəlxalq sistemi anarxik, təkqütblü dünyada isə ağalıq və razılıq nizamı iyerarxik perspektivdən təhlil edir və bu xüsusiyyətlərin (anarxiya və iyerarxiya) dövlətlərin davranışına necə təsir göstərdiyini izah etməyə çalışır. Güc amili qüvvələr balansı və ağalıq nizamında həlledici rol oynayırsa da, razılıq nizamında qayda və institutlar nizamın həm əsas elementi, həm də sabitləşdirici faktorudur. Bunlarla yanaşı İkenberri ağalıq və razılıq nizamının hərəkətverici prinsiplərindən irəli gələrək imperial nizam və liberal hegemoniya nizamının xüsusiyyətlərini və formalaşma amillərini təhlil edir.

## ƏDƏBİYYAT SİYAHISI:


1. *After Victory: Institutions, Strategic Restraint and the Rebuilding of Order after Major Wars / G. John Ikenberry – Princeton University Press – 2001 – pp. 3-49;*

2. *Bound to Fail: The Rise and Fall of the Liberal International Order / John J. Mearsheimer – International Security 43 – № 4 (Spring 2019) – pp. 7-50;*

3. *Liberal Leviathan: The Origins, Crisis and Transformation of the American World Order / G. John Ikenberry – Princeton University Press – 2011 – pp. 35-79;*

4. *The Tragedy of Great Power Politics / John J. Mearsheimer – W. W. Norton & Company – 2001 – pp. 1-55;*

5. *Triangulating Peace: Democracy, Interdependence, and International Organizations / Bruce Russet, John R. Oneal – W. W. Norton & Company – 2001 – pp. 125-193;*


## XÜLASƏ


Bu məqalədə Prinston Universitetinin professoru Con İkenberrinin beynəlxalq nizam və onun növləri ilə bağlı ideyaları təhlil olunur. Burada beynəlxalq nizamın üç növünə - qüvvələr balansı, ağalıq və razılıq nizamının məntiqi əsaslarına, habelə dövlətlərarası münasibətlərdə təzahür edən səbəb-nəticə əlaqələrinə xüsusi diqqət yetirilir. Eyni zamanda beynəlxalq nizamın iyerarxik strukturuna əsaslanan imperial nizam və liberal hegemoniyanın prinsipləri də nəzərdən keçirilir.



**Açar sözlər:** *beynəlxalq nizam, güc, böyük güc, qüvvələr balansı, ağalıq, razılıq, qayda, institutlar*



**Rafig Ibrahimov**
***Ph. D. candidate, Baku State University***
***ibrahimovrafiq123@gmail.com***


## International order and its types according to John Ikenberry


This article analyzes Princeton University Professor John Ikenberry's ideas about international order and its types. Here, special attention is paid to the causal logic of three types of international order – balance of power, command and consent and their manifestation in interstate relations. Here the principles of imperial order and liberal hegemony based on the hierarchical structure of the international order are considered as well.



**Keywords:** *international order, power, great power, balance of power, command, consent, rules, institutions.*



**Рафик Ибрагимов**
***Докторант Бакинского Государственного Университета***
***ibrahimovrafiq123@gmail.com***


## Международный порядок и его типы по Джону Айкенберри


В статье анализируются идеи профессора Принстонского Университета Джона Айкенберри о международном порядке и его типах. Особое внимание уделяется причинно-следственной логике трех типов международного порядка – баланса сил, командования и согласия и их проявлению в межгосударственных отношениях. Также рассматриваются принципы имперского порядка и либеральной гегемонии, основанные на иерархической структуре международного порядка.



**Ключевые слова:** *международный порядок, власть, великая держава, баланс сил, командование, согласие, правила, институты.*